**UOT 376**

***Aysel Əli qızı Xəlilova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Bakı Dövlət Universiteti*
https://orcid.org//0000-0002-6348-0668

# İNKLÜZİV TƏHSİLDƏ ŞAGİRDLƏRARASI MÜNASİBƏTLƏRİN TƏNZİMLƏNMƏSİ YOLLARI

***Айсель Али кызы Халилова***
*докторант по программе доктора философии*
*Бакинский государственный университет*

# СПОСОБЫ РЕГУЛИРОВАНИЯ МЕЖУЧЕНИЧЕСКИХ ОТНОШЕНИЙ В ИНКЛЮЗИВНОМ ОБРАЗОВАНИИ

***Aysel Ali Khalilova***
*doctorial student in the program of doctor of philosophy*
*Baku State University*

# WAYS TO REGULATE INTERSTUDENT RELATIONS IN INCLUSIVE EDUCATION

**Xülasə.** Məqalədə inkluziv təhsildə şagirdlərarası münasibətlər probleminə nəzər salınır. Qeyd olunur ki, sağlamlıq imkanları məhdud olan uşaqlar, adətən, yalnız ailə üzvləri ilə ünsiyyətə daxil olduqları üçün, onların kommunikativ bacarıqları zəif inkişaf edir. Kommunikativ bacarıqların zəif inkişaf etməsi onların inkluziv təhsilə cəlb olunanda sinif yoldaşları ilə münasibətlərə daxil olmasında çətinliklər yaradır. Müəllif sağlamlıq imkanları məhdud olan uşaqların valideynlərinin pedaqoji savadının artırılmasını və onların müəllimlərlə, məktəb psixoloqu və digər valideynlərlə əməkdaşlığını inklüziv təhsildə şagirdlərarası münasibətlərin tənzimlənməsi yolları kimi dəyərləndirir.

***Açar sözlər:*** *inkluziv təhsil, sağlamlıq imkanları məhdud olan şagirdlər, pedaqoji maarifləndirmə, əməkdaşlıq, ünsiyyət tələbatı, şagirdlərarası münasibətlər*

**Резюме.** В статье рассматривается проблема межученических отношений в инклюзивном образовании. Отмечено, что у детей с ограниченными физическими возможностями обычно слабо развивается коммуникативные навыки, поскольку они общаются только с членами семьи. Слабое развитие коммуникативных навыков в условиях инклюзивного образования затрудняет для них общение с одноклассниками. Автор исследует способы регулирования межученических отношений в инклюзивном образовании. Это, прежде всего, повышение педагогической грамотности родителей детей с ограниченными физическими возможностями, их сотрудничество с педагогами, школьными психологами и другими родителями.

***Ключевые слова:*** *инклюзивное образование, учащиеся с ограниченными физическими возможностями, педагогическое образование, сотрудничество, коммуникативные потребности, межученические отношения*

**Summary**. The article deals with the problem of interstudent relations in inclusive education. It is noted that children with physical disabilities usually develop poor communication skills, since they communicate only with family members. Poor development of communication skills in the context of inclusive education makes it difficult for them to communicate with classmates. The author explores ways to regulate interstudent relations in inclusive education. This is, first of all, improving the pedagogical education of parents of children with disabilities, their cooperation with teachers, school psychologists and other parents.

***Key words:*** *inclusive education, students with disabilities, pedagogical education, cooperation, communication needs, interstudent relations*

Ailə yarandığı dövrdən etibarən ailə tərbiyəsi anlayışı formalaşıb. O dövrdən bu günə qədər tərbiyənin yeni institutları formalaşsa da, ailə tərbiyəsi yeni nəslin tərbiyəsinin ən vacib tərkib hissəsi olduğuna görə bu vəzifəni özündə saxlaya bilmişdi. Hər bir uşağın tərbiyəsi, sağlam böyüməsi ailədən, onun möhkəmliyindən asılıdır. Buna görə də tərbiyə bu gün də ailənin əsas vəzifələrindən biri kimi dəyərləndirilir.

Yeni nəslin tərbiyəsi anlayışına adətən onların həyata hazırlanması, onlara sosial təcrübəni mənimsəmə üçün mühitin yaradılması və s. nəzərdə tutulur. Lakin bu anlayışı "sağlam bədəndə sağlam ruh olar" aforizmi müstəvisində təhlil etdikdə, aydın olur ki, uşağın tərbiyəsinin düzgün təşkili üçün ilkin şərtlərdən biri onun genetik və sosial-psixoloji sağlamlığıdır. Təəssüf ki, müəyyən səbəblərdən sağlam uşaqlarla yanaşı ailələrdə sağlamlıq imkanları məhdud olan uşaqlara da təsadüf edilir.

Təbii ki, hər birimiz belə uşaqları görəndə təəssüf hissi keçirir, onlara Allahdan şəfa diləyirik. Bu, bizim insani keyfiyyətimizin təzahürüdür. Hadisəyə dərindən nüfuz edəndə isə aydın olur ki, sağlamlıq imkanları məhdud uşaqların ailədə tərbiyə edilməsi böyük çətinliklərlə müşayiət olunur.

Ailədə sağlamlıq imkanları məhdud uşaqların olmasının obyektiv səbəbləri var, lakin eyni zamanda subyektiv səbəblər də yox deyil. Bəzi hallarda obyektiv adlandırdığımız səbəblər də subyektiv xarakter daşıyır. Fikrimizi izah etmək üçün diqqəti belə bir məsələyə yönəltmək istərdik. Nikaha girənlərin övladlarının gələcəkdə sağlamlığının təmin olunması məqsədi ilə bir müddət əvvəl nikaha daxil olmazdan əvvəl qan analizinin verilməsi qərara alındı. Bununla bağlı olaraq, Azərbaycan Respublikasının Ailə Məcəlləsində edilən dəyişikliyə əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 28 aprel tarixli 122 nömrəli qərarı ilə nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçməli olduğu xəstəliklərin siyahısı, qaydası və arayışın forması təsdiq edildi (10). Eyni xəstəliklərə malik olan gənclərin ailə həyatı qurması arzuedilməzdir. Belə hallarda uşağın xəstə doğulma ehtimalı çox olur. Bu, ailənin gələcəkdə böyük çətinliklərlə üzləşməsinə şərait yaradır. Azərbaycan Respublikasının Ailə Məcəlləsində edilən bu dəyişiklik nikaha daxil olan gənclərin ailə həyatında ola biləcək çətinliklərin qarşısını almağa yönəlmişdir. Əvvəllər belə tələb olmadığı üçün insanlar ailə qurarkən bir-birinin xəstəliklərindən xəbərdar olmurdular. Xəstəliklə əlaqədar analizin nəticəsi bilinəndən sonra qərarın qəbul edilməsi könüllü olaraq gənclərin ixtiyarına buraxıldı. Görəsən, neçə gənc analizin nəticəsinin mənfi olduğu halda nikaha girməkdən imtina etdi? Belə bir statistika aparılmasa da, yəqin ki, heç birimiz məişətimizdə bu cür faktla rastlaşmamışıq. Halbuki bu gün tibb elmi böyük nailiyyətlər əldə edib. Bu nailiyyətlərdən biri də odur ki, analizlərin müqayisəli təhlili ilə uşağın sağlam doğulma ehtimalını müəyyənləşdirmək olur. Hətta bir sıra hallarda valideynlərdən övlada keçə biləcək genetik mənşəli xəstəliklərin yeni doğulacaq uşağa keçməsinin qarşısını almaq mümkün olur. Bir çox xəstəliklərin uşağa ötürülməsi obyektiv xarakter daşısa da, məsələnin belə qoyuluşu onun subyektiv tərəflərə də malik olduğunu göstərir. Bunun üçün isə, sadəcə olaraq, doğulacaq uşağın sağlam inkişafı baxımından valideynin öz məsuliyyətini dərk etməsi zəruridir.

Uşaqlarda psixoloji travmaların yaranması bir sıra obyektiv səbəblərlə də bağlıdır. Valideynlərdən birinin vəfat etməsi və ya boşanması, təkrar nikah ("ögey ana" və ya "ögey ata" amili), təkuşaqlılıq, qorxu, stress, əsəb və s. bu qəbildən olan amillərdir. Bu istiqamətdə müasir dövrdə həm demoqrafik, həm də mənəvi-psixoloji mühitin formalaşması ailə tərbiyəsinin mühüm amili kimi qiymətləndirilir. Dərindən təhlil etsək, bu amillərin də subyektiv tərəflərə malik olduğunu görə bilərik.

Xüsusi qayğıya ehtiyacı olan uşaqlarda çatışmazlıqlar iki istiqamətdə – onların fiziki və psixi inkişafında özünü göstərir. Uşağın sağlamlıq imkanlarının məhdud olması bu ailələrin sosial həyatının çətinləşməsinə səbəb olur. Belə ki, bu ailələrdə ailə üzvlərinin hər birinin bu uşaqların daha çox qayğısına qalması, onları himayə etməsi tələb olunur. Təbii ki, bu, ailənin sosial müdafiəyə ehtiyacını artırır. Onların sosial müdafiəsi məqsədi ilə müasir dövrdə dünyanın, demək olar ki, bütün ölkələrində müxtəlif işlər həyata keçirilir. Sağlamlıq imkanlarının məhdud olan uşaq və yeniyetmələrin hüquqlarının qorunması, onların cəmiyyətə inteqrasiyasını yaxşılaşdırmaq sosial institutların qarşısına mühüm vəzifə kimi qoyulur, bu uşaqların həyatının yaxşılaşdırılması yolları axtarılır.

İnklüziv təhsil bu istiqamətdə həyata keçirilən işlərdən biridir. Təhsilin bu növündə sağlamlıq imkanları məhdud olan şagirdə digərləri ilə birlikdə təhsil almaq imkanı yaradılır. Lakin bu təhsilin təşkili müxtəlif çətinliklərlə müşayiət olunur. Bu çətinliklərdən biri şagirdlərarası münasibətlərin tənzimlənməsi ilə bağlıdır. Aparılan tədqiqatlar da bu fikri sübut edir. G.S. Kazımova müəyyən etmişdir ki, kiçik məktəblilər, ümumiyyətlə, yaşıdları ilə ünsiyyət qurmaqda çətinlik çəkirlər. Müəllifin fikrincə, "bunun bir səbəbi onlar üçün ünsiyyətin başlıca şərt olmaması, digər tərəfdən şagirdin fərdi-psixoloji xüsusiyyəti ilə bağlıdır. Bu, özünü daha çox aqressiv, əsəbi şagirdlərin davranışında təzahür etdirir. Ünsiyyət qurmağa çətinlik çəkən digər şagirdlər, bir qayda olaraq, qapalı, qaraqabaq olduqlarından, onlar kollektivə adaptasiya olunmaqda problemlə üzləşirlər" (1, s. 157). Bunu onların həyat tərzi ilə əlaqələndirmək lazımdır. Onlar bütün günü evdə ünsiyyətsiz olur, onların ailənin digər üzvlərinin qayğısına daima ehtiyacı olur, buna görə özlərinin həmişə kimdənsə asılı olduğunu düşünürlər. Bu məqama diqqət edən G.S. Kazımova, məktəbli olmalarına baxmayaraq, onların kiçik, hələ də müəyyən qədər "ev uşağı" olaraq qaldıqlarını bildirir: "Onlar özlərinə dost, yoldaş seçərkən, ev tapşırıqlarını yerinə yetirərkən, asudə vaxtlarını keçirərkən daha çox valideynlərinin tövsiyə və məsləhətlərinə əməl etməyə çalışırlar. Onlar öz sevinc və kədərlərini valideynləri ilə bölüşür, onların müdafiəsinə ehtiyac hiss edir, tənbeh və təriflərinə həssaslıqla yanaşırlar" (1, s. 156).

Məsələyə bu istiqamətdən yanaşdıqda inkluziv təhsildə sağlamlıq imkanları məhdud olan uşağın digər şagirdlərlə ünsiyyətini təşkil etmək aktual pedaqoji problem kimi diqqəti cəlb edir. Beləliklə, inkluziv sinifdə təhsil alan bütün şagirdlərin hamısının sinifdaxili münasibətlərə hazırlanması zəruri məsələyə çevrilir. Bu işin təkcə müəllim tərəfindən həyata keçirilə biləcəyi o qədər də inandırıcı görünmür. Mütəxəssislərin fikrincə, xüsusən "kiçik məktəblilərin yaşıdları ilə qarşılıqlı münasibətləri həm də valideynlərindən asılıdır" (1, s. 156). Məsələyə belə yanaşdıqda, inkluziv sinifdə təhsil alan digər şagirdlərin valideynlərinin də övladlarının, xüsusən sağlamlıq imkanları məhdud olan şagirdlərlə münasibətlərə hazırlanması işində iştirak etməsi aktuallaşır.

Sağlamlıq imkanları məhdud olan şagirdlərin yaşıdları ilə əlaqə qurmaqda çətinlik çəkmələri həm onların xəstəliyinin yaratdığı çətinliklər, həm də ailədə münasibətlər sisteminin düzgün qurula bilməməsi səbəbindən olur. Onun yaşadığı ailədə valideynlərin həyatı digər ailələrlə müqayisədə əlavə çətinliklərə malik olur. Bu valideynlər öz normal həyatlarını yaşaya bilmirlər, işdən sonrakı vaxtlarını problemli uşağa xidmət göstərməyə ayırmalı olurlar, bəzən isə hətta işə getməkdən imtina etməyə məcbur olurlar. Ailədə yaşayan digər uşaqlar da bir çox hallarda valideynlərinə kömək etməli olurlar. Onlar, əsasən, valideynlər işdə olarkən və ya başqa hansısa məsələ işə məşğul olanda sağlamlıq imkanı məhdud olan qardaş və ya bacısına kömək edirlər. Təəssüf ki, istər valideynin, istərsə də ailədəki digər uşağın sağlamlıq imkanı məhdud uşaqlarla ünsiyyəti yalnız ona kömək etmək müstəvisində həyata keçirilir. Xüsusən pedaqoji savadı aşağı səviyyədə olan valideynlər onların kommunikativ bacarıqlarının inkişaf etdirilməsi istiqamətində çox az iş görə bilirlər. Buna görə də inklüziv təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud uşaqlarda ünsiyyət qurmaq çətinlikləri olur. Onlar, adətən, evdə ailə üzvləri ilə ünsiyyətə daxil olurlar. Məhdud sayda insanla münasibətə daxil olması onun ünsiyyət tələbatının ödənməməsinə şərait yaradır.

Belə situasiyanın yaranmasında valideyni günahlandırmaq da mümkün deyil. Sağlamlıq imkanları məhdud olan uşaqların valideynləri öz övladının gələcəyi üçün qurduğu parlaq perspektivlərlə dolu olan planlar belə hallarda alt-üst olur, onlar digər sağlam uşaqlara həsədlə baxırlar. Q.Ə. Əzimlinin sərrast ifadəsi ilə desək, "Valideynlər acı duyğular, dərin qorxu hissi yaşayırlar: "Uşağımız ali təhsil ala bilməyəcək, hansısa peşə sahibi, tam hüquqlu şəxsiyyət belə ola bilməyəcək!" Bu və digər oxşar stereotiplərdən valideynlər böyük əziyyət çəkirlər, çünki onlar ömür boyu öz həyatları üçün özlərinə qurduqları ssenaridən imtina edərək gələcəkləri üçün yeni, sönük və könülsüz, həmçinin, kədərli bir ssenarini diktə etməli, bütün planlarını, arzularını və yaşamaq istəyini cilovlamalı olurlar" (2, s. 117). Bu düşüncələr valideynlərin özlərinin psixoloji halətini gərginləşdirir.

Deyilən gərginlikdən əlavə, sağlamlıq imkanları məhdud olan uşağın yaşadığı ailələrdə

daima sosial risk vəziyyəti olur. Bu uşaqların bəziləri hər an özünə və başqalarına xəta yetirə bilər və ya evə zərər vura bilərlər. Buna görə də sağlamlıq imkanları məhdud olan uşaqların ailələrində təhlükəsizlik və onların müdafiəsi əsas məsələyə çevrilərək, ünsiyyət tələbatını ödəməkdən əvvələ keçir. Həmin uşaqlarla birgə sosial həyata uyğunlaşma, gərginliklərdən, fərqliliklərdən yaranan qeyri-müəyyən hisslərə üstüngəlmə də mühüm psixoloji stress halətində mürəkkəb məsələyə çevrilir. İnklüziv təhsil alan şagirdlərin valideynləri ilə apardığımız sorğularda onlar özləri də bunu etiraf edirlər. Keçirdiyimiz sorğularda respondentlərin verdiyi cavablardan bu aydın görünür. Onlarda:

– özünə və uşağın təhlükəsiz gələcəyinə inam hissi az olur;

– digər övladlar üçün yarana biləcək problemlərə görə narahatlıq olur;

– övladının həyatda özünə layiqli yer tuta biləcəyinə qəti əminlik olmur;

– övladının yaşamaq üçün maddi təminat əldə edə biləcəyinə əminlik olmur;

– özünün və övladının həyatı üçün gözlənilməz yeni zərbələr ala biləcəyindən qorxu hissi olur;

– xəstə övladını itirmək qorxusu olur;

– başına bir iş gələrsə, uşağa kimsənin yardım etməyəcəyi hissi hakim olur;

– işsiz qalmaq, uşağın təhsil xərcini ödəyə, müalicə edə bilməmək qorxusu yaşanır;

– xəstələnmək, onun qayğısına qala bilməmək təhlükəsi olur və s.

Valideynlərin keçirdiyi bu hisslər, xüsusilə ananın emosional vəziyyəti istər-istəməz uşağın da emosional sahəsinə, o da öz növbəsində yaşıdlarla qarşılıqlı münasibətlərinə təsir göstərir. Bu məsələni nəzərə alaraq A. Karaca bildirir ki, “inklüziv siniflərdəki bütün şagirdlərin valideynləri işbirliyinə daxil edilməlidir (3, s. 30). Yəni, inklüziv siniflərdə təhsil alan bütün şagirdlərin valideynləri pedaqoji işə cəlb olunmalıdırlar. Onlar həm müəllimlə, həm bir-birləri ilə, həm də xüsusən sağlamlıq imkanları məhdud olan şagirdin valideynləri ilə əməkdaşlıq etməlidirlər. İnkluziv təhsildə uğur qazanmanın ilkin şərtlərindən biri budur.

Türkiyədə ibtidai təhsildə inklüziv qaydaların tətbiqi və qiymətləndirilməsi nəticəsində belə müəyyən edilmişdi ki, ailələr inklüziv təcrübələrin öyrənilməsinə böyük maraq göstərirlər. Bu səbəbdən sinifdəki bütün valideynlər sinif müəllimi ilə əməkdaşlıq edirlər. Bəzi ailələr uşaqlarını inteqrasiya etmək üçün çox istəkli olsa da, bəzi ailələrin bu prosesə daxilolma qorxusu vardır. “Ailənin inklüziv prosesə daxiletmənin uğurla həyata keçirilməsi son dərəcə vacibdir. Bunun üçün müəllim ailəyə şagirdin həm məktəbdə, həm də evdə öyrəndiklərini möhkəmləndirməyə kömək edir. O, ailənin inklüziv təhsil prosesinə daxil olmasının faydalarına inanmırsa, valideynin müəllimdən kömək almaq ehtimalı da az olacaqdır. Məktəbdə və sinifdə normal şagirdlərin inklüziv şagirdləri qəbul etməsi qarşılıqlı münasibətlərə müsbət təsir edəcəkdir” (4, s. 30).

Türkiyədə inklüziv təhsil üçün hazırlanmış bir vəsaitdə valideynlərlə aparılan işə xüsusi yer verilir. Bu sahədə ailənin əlilliyə uyğunlaşma mərhələləri, ailə təhsilinin məqsədləri, valideyn – müəllim iş birliyi, valideynin müəllimlə ünsiyyəti, təlim prosesində valideynlərin iştirakı, ailə üçün göstərilən xidmətlər, eləcə də sağlamlıq imkanları məhdud uşaqların valideynləri üçün ailə təhsili proqramlarının hazırlanması məsələləri aydınlaşdırılır (5). Mənbədə göstərilən əsas fikirlərdən biri budur ki, sağlamlıq imkanları məhdud uşağı olan ailə bunun öhdəsindən tək gələ bilmir. Dəstəksiz və tək qaldıqda onlar uşaqlarına qarşı laqeyd ola bilərlər.

Sağlamlıq imkanları məhdud olan şagirdlərin valideynlərinin pedaqoji savadının artırılması da inklüziv təhsilin keyfiyyətinin artırılmasının əsas şərtlərindən biridir. Bu istiqamətdə Təhsil İnstitutunun əməkdaşlarının hazırladıqları vəsaitdə valideynlərin pedaqoji prosesə cəlb edilməsinə xüsusi diqqət yetirilir. Həmin vəsaitdə qeyd edilir ki, sağlamlıq imkanları məhdud olan uşaqların ailədə tərbiyə işinin düzgün qurulması üçün “valideynlərin sinif rəhbəri ilə, müəllimlərlə, psixoloq və defektoloqlarla birgə işi mühüm məsələlərdən” biridir. Göstərilir ki, “bu sahədə ixtisaslaşmış müəllimlər pedaqoji və psixoloji mövzularda mühazirələr, elmi praktik konfranslar təşkil etməlidir. Bu işi sistemli həyata keçirmək üçün müəllim öz sinfində atipik uşaqların sağlamlıq vəziyyətini, psixologiyasını, ailə vəziyyətini dərindən öyrənməlidir” (6, s. 52). Bu vəsaitdə təhsil müəssisələrinin, müəllimlərin və psixoloqların valideynlərə dəstək formaları da göstərilir. Onlardan bəzilərinə diqqət edək:

▪ Sosial və emosional sahələrdə valideynlərə dəstək. Sosial və emosional yardım çərçivəsində müəllim və psixoloq valideynlərə tənhalıq hissindən xilas olmaqda köməklik göstərirlər;

▪ İnklüziv siniflərdə təlimin təşkilində iştirak etmək. Valideynlərə uşaqların davranışı, uğurları haqqında məlumat verilir. Uğurları ilə ruhlandırılır. Sağlamlıq imkanları məhdud uşağın valideyni sağlam uşaqların valideynləri ilə birgə iclaslarda iştirak edir, övladının inkişafı haqqında müzakirə aparırlar;

▪ Uşaq və valideynlər arasında qarşılıqlı münasibətlərin yaxşılaşdırılması. Bu məqsədlə ümumi tədbirlər keçirilir. Valideynlər üçün psixoloji və pedaqoji dəstək xarakterli seminarlar təşkil edilir. Şagirdlərə valideynləri ilə sosioloji sorğular keçirmək kimi layihə tipli tapşırıqlar verilir;

▪ Valideynlərlə səmərəli ünsiyyət. Müəllimlər valideynlərlə işi planlaşdırır, qarşılıqlı əlaqələr konkret məsələlərin həllinə yönəldilir;

▪ Konsultasiyalar. Müəllim və psixoloq uşağın probleminin daha yaxşı həll edilməsində valideynə kömək edir. Onlarla uşağın və ailənin problemlərinin həlli yolları, uşağı başqaları ilə ünsiyyət qurmağa alışdırmaq mövzularında iş aparırlar;

▪ Empatiyaya nailolma. Müəllim özünü valideynin yerinə qoymağa, oxşar vəziyyətlərdə özünü necə hiss edəcəyini başa düşməyə çalışır. Səmimiyyəti gözləyir. Onu dinləyir, qayğılarına şərik olur.

Göründüyü kimi, sağlamlıq imkanları məhdud olan uşaqların valideynlərinin ailədə tərbiyə işinin düzgün qurulması üçün bu vəsaitdə kifayət qədər geniş səpkili işlər nəzərdə tutulmuşdur. Bu sağlamlıq imkanları məhdud olan uşaqların ailələrində vəziyyətin kifayət qədər çətin və onlara məktəbin köməyinin zəruri olduğunu göstərir.

Sağlamlıq imkanları məhdud olan uşaqların valideynlərinin pedaqoji savadının artırılmasının zəruri olduğunu digər tədqiqatçılar da qeyd edir. Onlar, haqlı olaraq, bu işə pedaqoji prosesin bir hissəsi kimi yanaşır və onun səmərəli təşkili yollarını axtarırlar. N. Hüseynova və L. İmanova bu valideynlərlə işin "təşkilatçı (şəxs və onların valideynləri ilə məşğuliyyətləri təşkil etmək); maarifləndirici (ailəni tibbi-sosial yardımın alması ilə bağlı məlumatlandırmaq); psixo-pedaqoji və sosial-məişət adaptasiyasını həyata keçirmək, şəxs və onun ailəsinə dəstək olmaq (7, s. 226) funksiyalarını ayırd edirlər. Onların fikrincə, "bir çox valideynlər övladlarının bu və ya digər problemlərini həll etmək üçün kifayət qədər biliklərə malik olmurlar. Buna görə də valideynlərin öz uşaqları ilə düzgün ünsiyyət qurmalarını öyrənməsinə zərurət vardır" (7, s. 227-230). Göründüyü kimi, müəlliflər valideynlərin maarifləndirilməsi işini aktuallaşdırır. Bu gün valideynlərin maarifləndirilməsi üçün çoxlu forma və üsullar vardır. Ailəni ziyarət, əyani təbliğat, valideyn iclasları, dəyirmi masa, söhbət və məsləhətlər, valideynlər üçün treninq (rollu və işgüzar oyunlar, məşqlər, psixodramalar), seminar və konfranslar, açıq qapı günləri və bu kimi yollardan pedaqoji təcrübədə faydalanırlar.

L.M. Əliyeva uşaqların psixi inkişafında valideynlərin maarifləndirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayır. Onun fikrincə:

– valideynləri ailədəki ünsiyyət çatışmazlığı üzündən uşaqda yaranan psixoloji problemlər haqqında məlumatlandırmaqla, ünsiyyət və münasibətləri tənzimləməyin yollarını öyrətməklə problemlərin bir qismini (sosial rollara adaptasiya, birgə fəaliyyətə maraq, fəaliyyətin planlaşdırılması və icra bacarıqlarını) həll etmək mümkündür;

– valideynlərin biliklərlə maarifləndirilməsi, uşaqların inkişaf yolları ilə bağlı praktik işlərlə tanışlıq onların əməkdaşlıq motivasiyasını artırır, bu sahədə maraqları birləşdirməyə səy göstərirlər (8, s. 140-141).

Deyilənlərdən aydın olur ki, inklüziv məktəblərdə həyata keçirilən proqramları əsas tutaraq sağlamlıq imkanları məhdud şagirdlər üçün məktəblərdə "Ailəyə dəstək" adı altında şagirdlərarası münasibətlərin tənzimlənməsi sahəsində proqramın tətbiqinə zəruri ehtiyac vardır.

Valideyn-müəllim əməkdaşlığı sağlamlıq imkanları məhdud olan şagirdlərin yaşadığı ən vacib iki mühit arasındakı uyğunluğu təmin edir. Bunu nəzərə alaraq, inklüziv məktəb proqramlarında ailə ilə qarşılıqlı münasibətlərin inkişafına müsbət təsirlər göstərə bilən yollar ayırd edilməlidir.

Ailənin inkişafına töhfə vermək məqsədi ilə ailələrə psixoloji yardım göstərmək inklüziv təhsildə şagirdlərarası münasibətlərin tənzimlənməsi proqramında öz əksini tapmalıdır. Bu sahədə aparılan psixoloji konsultasiyada metodlar eyni olsa da, hər bir şagird və ailə ilə məsləhətləşmədə verilən məlumatlar adi məlumatlardan fərqli və fərdi olmalıdır. Burada fərqlilik

dedikdə, hər bir şagirdin qüsurlarının yaratdığı xüsusiyyətlər nəzərdə tutulur.

İnklüziv təhsildə şagirdlərarası münasibətlərin tənzimlənməsi proqramında sağlamlıq imkanları məhdud olan şagirdlərin məktəbdə qazandığı bacarıqların ailə mühitində tətbiqinə çalışmaq, təhsilin davamlılığını təmin etmək də öz əksini tapa bilər. Ailədə paralel təlim mühiti yaradaraq məktəbdə öyrəndikləri bilik və bacarıqları daha da möhkəmləndirərək müəllim və valideynləri şagirdin inkişafına yönəlmiş daha sağlam əlaqələrə motivləşdirmək zəruridir.

**Problemin elmi yeniliyi.** Sağlamlıq imkanları məhdud olan uşaqların məlum səbəblərdən kommunikativ bacarıqları inkişaf etmir. Bu bacarıqların inkişaf etməməsi inkluziv təhsildə onun şagirdlərarası münasibətlər qurmasında çətinlik yaradır. Məqalədə sağlamlıq imkanları məhdud olan uşaqların kommunikatıv bacarıqların inkişaf yolları açıqlanır.

**Problemin praktik əhəmiyyəti.** İnklüziv təhsildə sağlamlıq imkanları məhdud olan uşaqların kommunikatıv bacarıqlarının inkişaf etdirilməsi yolları ilə tanış olan müəllimlərin tədrisi daha səmərəli təşkiletmə imkanları yaranır.

**Problemin aktuallığı.** Müasir dövrdə inklüziv təhsil sağlamlıq imkanları məhdud olan uşaqların cəmiyyətə inteqrasiya yollarından biri kimi qiymətləndirilir. Lakin bu şagirdlərin kommunikativ bacarıqlarının inkişaf etməməsi onların təhsilinin səmərəli təşkilinə neqativ təsir göstərir. Kommunikativ bacarıqların inkişaf etdirilməsi həm sağlamlıq imkanları məhdud olan uşaqların təhsilinin səmərəsinin artırılmasında, həm də onların cəmiyyətə inteqrasiyasında mühüm rol oynayır. Bu istiqamətdə kommunikatıv bacarıqların inkişaf yollarının müəyyən edilməsi aktual pedaqoji problemlərdən biridir

**Ədəbiyyat:**


1. Kazımova, G.S. Kiçikyaşlı məktəblilərin kollektivə adaptasiyasında qarşılıqlı münasibətlərin rolu: // psixol. üzrə fəls. dok. diss. – Bakı: – 2014. – 153 c.
2. Əzimli, Q.Ə. Müasir dövrdə anomal uşaqların təlim-tərbiyə işinə cəlb edilməsi haqqında fikirlər // Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar" mövzusunda beynəlxalq elmi konfransın materialları, – 2015, 5-6 iyun, – s. 268-269
3. Karaca, M.A. Kaynaştırma eğitimi programının öğretmenlerin kaynaştırma uygulamalarındaki mesleki yeterliliklerine etkisi / M.A. Karaca. – Konya: Eğitim bilimleri enstitüsü, – 2018. – 157 s.
4. İlköğretim okullarındaki kaynaştırma uygulamalarının değerlendirilmesi. – Ankara: Milli Eğitim Bakanlığı, – 2010. – 148 s.
5. Özel eğitim hizmetleri tanıtım el kitabı. – Ankara: Milli Eğitim Bakanlığı, – 2014. – 187 s.
6. İnklüziv siniflərdə təlimin təşkili. – Bakı: TPİİ, – 2008, – 68 s.
8. Hüseynova, N. Korreksiya işlərinin həyata keçirilməsi. / N. Hüseynova, L. İmanova. – Bakı: Təhsil Nazirliyi, – 2020. – 296 s.
9. Əliyeva, L.M. Məktəbəqədər yaşlı uşaqların psixi inkişafinda valideyn və tərbiyəçilərin rolu: // psixol. üzrə fəl. dok. diss... – Bakı: – 2014. – 138 c.
10. http://www.e-qanun.az


**E-mail:** Khalilova111@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok., dos.* **H.B. Bayramov,**
*ped.elm.dok., prof.* **H.Ə. Əlizadə**
**Redaksiyaya daxil olub:** 18.03.2022.